Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 11 ” mart tarixli
76 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Bələdiyyələrin vahid informasiya sisteminə ötürüləcək və həmin sistemdən əldə ediləcək məlumatların dairəsi

1. Bu Qərarın 1.1-1.10-cu bəndlərində nəzərdə tutulan orqanların (qurumların) informasiya sistemlərindən (ehtiyatlarından) bələdiyyələrin vahid informasiya sisteminə ötürüləcək məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

1.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üzrə:

1.1.1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsində qeyd edilən eyniləşdirmə məlumatları (soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, fərdi identifikasiya nömrəsi (bundan sonra – FİN);

1.1.2. Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatanadək vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsində qeyd edilən məlumatlar (soyadı, adı, doğulduğu tarix, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, yaşadığı yer);

1.1.3. Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsində qeyd edilən məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, yaşadığı yer);

1.1.4. şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı barədə məlumatlar;

1.2. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti üzrə:

1.2.1. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 45.1.3-cü və 52.1.3-cü maddələrinə əsasən Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə verilmiş və icazələri qüvvədə olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə məlumatlar (adı, soyadı, doğum tarixi, icazə vəsiqəsinin seriyası və nömrəsi, etibarlılıq müddəti, şəxsin eyniləşdirilmə nömrəsi, qeydiyyata alındığı ünvan);

1.3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə:

1.3.1. şəxsin (Azərbaycan Respublikası vətəndaşlarının, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə daxil edilən eyniləşdirmə məlumatları (soyadı (əvvəlki soyadları), adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsi, FİN-i, doğulduğu tarix, ailə vəziyyəti, ölüm tarixi);

1.3.2. ərin (arvadın) FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.3.3. valideynlərin FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.3.4. uşağın FİN-i (olduğu halda), soyadı, adı, atasının adı barədə məlumatlar;

1.3.5. icra sənədi üzrə icraatda bələdiyyənin tərəf olduğu icra işləri barədə məlumatlar;

1.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üzrə:

1.4.1. hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestri üzrə məlumatlar (hüququ rəsmiləşdirilən fiziki şəxsin, o cümlədən əvvəlki hüquq sahiblərinin soyadı, adı, atasının adı, FİN-i, hüququn növü, qeydiyyat tarixi və reyestr

nömrəsi, daşınmaz əmlakın növü, ölçüləri və ünvanı, mülkiyyət növü, binanın sahəsindəki payları, həmçinin onların mülkiyyətində, istifadəsində və icarəsində olan torpaq sahələrinin kateqoriyası və keyfiyyət qrupu);

1.4.2. bələdiyyələrin ərazilərində ödənilən əmlak vergisinin ödəyicisi olan şəxslər barədə məlumatlar:

1.4.2.1. fiziki şəxslər üzrə – VÖEN-i, VÖEN-nin qeydiyyat tarixi, təsərrüfat subyektinin (obyektin) kodu və vergi ödəyicisinin vəziyyəti;

1.4.2.2. hüquqi şəxslər üzrə – hüquqi şəxsin adı, VÖEN-nin qeydiyyat tarixi, təsərrüfat subyektinin (obyektin) kodu, vergi ödəyicisinin vəziyyəti və rəhbər barədə məlumatlar;

1.4.3. bələdiyyələrin vergilər, məcburi dövlət sosial sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə borcları barədə məlumatlar;

1.5. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzrə:

1.5.1. kiçikhəcmli gəminin adı, növü, mühərrikinin həcmi, tikildiyi il və mülkiyyətçisi (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, FİN-i, doğulduğu tarix) barədə məlumatlar;

1.5.2. təhlükə potensiallı obyektlərə dair məlumatlar;

1.6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi üzrə:

1.6.1. yerli büdcələrə ayrılan dotasiyalar və subvensiyaların təsdiq olunmuş göstəriciləri barədə məlumatlar;

1.7. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi üzrə:

1.7.1. abunəçinin FİN-i və ya VÖEN-i əsasında müəyyən edilən telefon nömrəsi (məftilli olduğu zaman ünvanı), sellülar (mobil) və simsiz telefon nömrələri;

1.7.2. abunəçinin telefon (məftilli olduğu zaman ünvanı), sellülar (mobil), simsiz telefon nömrəsi əsasında müəyyən edilən FİN-i və ya VÖEN-i;

1.7.3. hava gəmisinin mülkiyyətçisi (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi, FİN-i, doğulduğu tarix) və mühərrikinin həcmi barədə məlumatlar;

1.7.4. gəminin (kiçikhəcmli gəmilər istisna olmaqla) mülkiyyətçisi (fiziki şəxsin soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, FİN-i, doğulduğu tarix), inşa edildiyi il, mühərrikinin həcmi, gəmiyə mülkiyyət hüququ haqqında şəhadətnamənin nömrəsi və verilmə tarixi barədə məlumatlar;

1.8. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üzrə:

1.8.1. təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı təyinatlı torpaqlar barədə məlumatlar;

1.9. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə:

1.9.1. müddətli həqiqi hərbi xidmətə göndərilmiş vətəndaşların soyadı, adı, atasının adı, FİN-i, hərbi xidmətin başlanğıcı və sonu barədə məlumatlar;

1.9.2. çağırış üzrə gəlməli olan vətəndaşların soyadı, adı, atasının adı, FİN-i barədə məlumatlar;

1.10. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə:

1.10.1. əmək pensiyası alan şəxslər və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1-1-ci və 102.2-ci maddələrində nəzərdə tutulan şəxslər barədə məlumatlar.

2. Bu Qərarın 2.1-2.10-cu bəndlərində nəzərdə tutulan orqanlar (qurumlar) tərəfindən bələdiyyələrin vahid informasiya sistemindən sorğu əsasında əldə edilən məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

2.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üzrə:

2.1.1. himayədə olanlara görə əmək haqqından tutulan gəlir vergisindən güzəşt tətbiq ediləcək şəxsə dair məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix,

şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, FİN-i, yaşayış yeri);

2.1.2. daşınmaz əmlakın dövlət reyestrində hüquqları qeydiyyata alınmış və ya qeydiyyata alınmayan fiziki və ya hüquqi şəxslərlə bələdiyyələr arasında bağlanılmış torpaq sahələrinin icarəyə və ya istifadəyə verilməsinə dair qüvvədə olan və qüvvədən düşmüş müqavilələr barədə məlumatlar;

2.1.3. bələdiyyə ərazilərinin əhatə dairəsi (ərazi vahidləri üzrə), bələdiyyə orqanının yerləşdiyi ünvan, bələdiyyə sədri və ya sədri vəzifələrini icra edən şəxslər barədə məlumatlar;

2.1.4. bələdiyyənin verdiyi sənədin əsasını təşkil edən arxiv sənədi barədə məlumatlar;

2.1.5. torpaq sahələrinin mülkiyyətə, icarəyə və istifadəyə ayrılması ilə bağlı bələdiyyələr tərəfindən qəbul edilmiş qərarların surəti, habelə bu qərarlar əsasında formalaşdırılmış, torpaq mülkiyyətçisi, istifadəçisi və icarəçisinin adına, torpaq sahəsinin yerləşdiyi ünvana görə təsnifatlaşdırılmış məlumat;

2.1.6. fiziki şəxslərə əmlak və torpaq vergilərinin hesablanması üçün əsas təşkil edən məlumatlar, habelə hər bir fiziki şəxs üzrə hesablanan əmlak və torpaq vergilərinin məbləğləri barədə məlumatlar;

2.2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi üzrə:

2.2.1. bələdiyyənin əhatə etdiyi ərazidə dəfni təşkil edən şəxs barədə məlumatlar (soyadı, adı, atasının adı, ünvanı və əlaqə vasitələri);

2.2.2. fiziki şəxsin bələdiyyə qarşısında öhdəliklərinə dair məlumatlar (soyadı, adı, atasının adı, doğulduğu tarix, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, FİN-i, öhdəliyin həcmi);

2.2.3. yerli büdcənin gəlirləri barədə məlumatlar;

2.3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi üzrə:

2.3.1. bələdiyyələrdə uçotda olan fiziki şəxslər barədə məlumatlar (soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, uçota alındığı ünvanı və əlaqə vasitələri);

2.4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi üzrə:

2.4.1. yerli büdcənin icrasına dair məlumatlar;

2.5. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə:

2.5.1. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi qulluqçularına məzuniyyət verilməsi zərurətini təsdiq edən sənədlərə dair məlumatlar;

2.5.2. ilkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların soyadı, adı, atasının adı, FİN-i barədə məlumatlar;

2.5.3. çağırış üzrə gəlməli olan vətəndaşların xəbərdar edilməsinə dair məlumatlar (soyadı, adı, atasının adı, FİN);

2.6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə:

2.6.1. bələdiyyənin əhatə etdiyi ərazidə dəfni təşkil edən şəxs barədə məlumatlar (soyadı, adı, atasının adı, FİN);

2.7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi üzrə:

2.7.1. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 11.14-cü maddəsinə əsasən dövlət büdcəsindən maliyyə yardımları almaq istəyən bələdiyyələr tərəfindən təqdim edilməli olan məlumatlar;

2.7.2. yerli büdcənin icrasına dair məlumatlar;

2.8. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üzrə:

2.8.1. bələdiyyə mülkiyyətində olan fiziki və hüquqi şəxslərə icarəyə və istifadəyə verilməsi məqsədilə hərraca çıxarılacaq kənd təsərrüfatı təyinatlı torpaqların qrafiki

xəritə məlumatları, habelə həmin torpaqların icarəyə və ya istifadəyə verilməsinə dair qərar və müqavilələr;

2.8.2. bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların illik monitorinqinin nəticələri barədə məlumatlar;

2.8.3. bələdiyyə ərazisində qəbiristanlığın salınması və köçürülməsi barədə bələdiyyə tərəfindən qəbul edilən qərar və mövcud qəbiristanlıqların koordinatları, ayrılan torpaq sahəsi barədə məlumatlar;

2.8.4. bələdiyyələr tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə fiziki şəxslərdən alınan torpaq vergisinə dair məlumatlar;

2.9. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi üzrə:

2.9.1. bələdiyyə mülkiyyətində olan içməli su təchizatı, kanalizasiya, meliorasiya və irriqasiya sistemləri barədə məlumatlar;

2.10. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi üzrə:

2.10.1. fiziki və hüquqi şəxslərin bələdiyyə qarşısında aşağıda göstərilən öhdəliklərinə dair məlumatlar (sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs olduqda – soyadı, adı, atasının adı, qeydiyyat ünvanı, FİN-i, VÖEN-i, fəaliyyət növlərinin adları və kodları (əsas və əlavə) və əlaqə vasitələri; hüquqi şəxs olduqda – tam adı, VÖEN-i, fəaliyyət növlərinin adları və kodları (əsas və əlavə) və əlaqə vasitələri; hər ikisinə münasibətdə – öhdəliyin yaranma tarixi, səbəbi, öhdəliyin növü və həcmi):

2.10.1.1. qanunvericiliklə müəyyən edilmiş vergi və digər məcburi ödənişlər üzrə məlumatlar;

2.10.1.2. bələdiyyə mülkiyyətində olan daşınmaz əmlak üzərində reklam daşıyıcısının yerləşdirilməsi ilə əlaqədar məlumatlar;

2.10.1.3. bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqlarının və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqlarının təşkili ilə əlaqədar məlumatlar;

2.10.1.4. bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətlərinin təşkili ilə əlaqədar məlumatlar;

2.10.1.5. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsi, icarəyə və istifadəyə verilməsi ilə əlaqədar məlumatlar;

2.10.1.6. bələdiyyə ərazisində səyyar və stasionar ticarət, ictimai iaşə və digər xidmət fəaliyyətinin təşkili ilə əlaqədar məlumatlar.